**UOT 745/749**

***Urqiyyə Həsənova***
***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti***
***Az-1065, Bakı, İnşaatçılar prospekti 39***
***E-mail:*** ruqiyyehesenli93@gmail.com

# MODA İMPERATORU CHRİSTİAN DİOR

**Xülasə:** Moda yarandığı ilk günündən insanları heyrətə salmağı bacarmışdır. İnsanla geyim arasında qarşılıqlı münasibəti moda daha aydın formada əks etdirir. Beləliklə, eyni zamanda moda yeniliyi təbliğ edir. Modadan bəhs edərkən modanın imperatoru Christian Diordan söz etməmək mümkün deyil. Artıq məlum olduğu kimi Christian Dior bir markadır. Onun geyimlərinə sahib olmaq nəinki XX əsrin 50-ci illərinin hətta müasir qadınların da ən böyük arzusudur. Dior geyimləri öz zərifliyi, zərafəti və özünə xas detalları ilə fərqlənir.

**Açar sözlər**: Christian Dior, moda, incə və zərif geyimlər, sadəlik, baxımlılıq, zövq, dizayn.

Moda imperatoru Christian Dior demişdir: “Modanın üç əsası vardır: sadəlik, baxımlılıq və zövq. Bunları heç vaxt pulla almaq almaq olmur”. O, bu sözlərlə modanın insan həyatındakı vacibliyini və əhəmiyyətini bildirmişdir.

Bəs moda nədir? Nə zaman yaranmışdır?

Gözəl görünmək və bu gözəlliklə diqqəti öz üzərlərinə çəkmək arzuları, insanlar da xüsusən də qadınlarda daha yaxşısını axtarmaq səyləri nəticəsində “gözəl geyinmək” ifadəsinin yaranmasına səbəb olmuşdur. Bəşəriyyətin inkişafı zamanı baş verən yeniliklər geyimə də təsir etmişdir. Bu zaman insanın məşğul olduğu peşəyə uyğun geyinməsinə səbəb olmuşdur. Modanın əsas məqsədi geyimin mütləq faydalı və lazımlı olmasından çox, fərqli olmasıdır. Bir sözlə deyə bilərik ki, moda isinmək və yaxud da qorunmaq üçün istifadə edilmir. Moda həm də insanın xüsusən də qadınların gözəl və cazibədar olmağa, şəxsiyyətini və stilini geyimləri ilə ifadə etməyə kömək edir. Bütün dövrlərdə insanları öz təsiri altına almış ictimai məfhum olan moda hal – hazırda bir çox anlayışları özündə birləşdirir.

Moda anlayışı XVI əsrdə formalaşmış, bir dövlətdən digərlərinə yayılmağa başlamışdır. Bütünlükdə müasir cəmiyyətin mühüm təkamül faktoru sayılan, mədəniyyətin fenomeni olan moda XVIII əsrin sonunda öyrənilmiş, onun estetik təzahürünün idealı və zövqü şərh edilmişdir. Bir çox tədqiqatçılar modanı onun adının kütləvi davranış qaydaları ilə bağlı olduğunu qeyd edirlər. Lakin modanın

təzahürünün həqiqi mahiyyətinin başa düşülməsi, cəmiyyətdə onun əmələ gəlməsi və funksional mexanizminin açılması modanın öyrənilməsinə imkan verir.

Moda insan və sosial fraqmentlərin reallığı çərçivəsindən kənara çıxaraq, ayrı - ayrı elementlərlə kəsişir. Beləliklə, bütöv və universal olaraq insanın həyat fəaliyyətinin iqtisadi, psixoloji, estetik və digər sahələrini əhatə edir. Özünü ən çox geyimdə göstərən moda ümumiyyətlə, insanın daimi tələbatları ilə əlaqədar yaranaraq eyni zamanda çoxluğun qəbul etdiyi və üstünlük verdiyi yeniliyin qısa müddətli hakimiyyətidir. Bu anlayış bütün əsrlər boyu kor-təbii surətdə mövcud olmuş, ayrı-ayrı dövlətlərdə hakimiyyət zövqünə uyğun dəyişmiş və inkşaf etmişdir

Moda bütün maddi və mənəvi dəyərləri mədəniyyətin dəyişmə prosesləri olan bütün sahələrini- incəsənət, ədəbiyyat, elm, texnika, siyasət, ideologiya və idmanı əhatə edir. Dizayn mədəniyyət sahəsi olduğundan modanın mexanizmi ona aktiv təsir göstərir. Bəzi mütəxəssislər belə hesab edirlər ki, modanın əmələ gəlməsini hər hansı müəyyən dövrə aid etmək və ya hadisə kimi qəbul etmək çətindir. Modanın ən mühüm cəhətlərindən biri də onun dəyişkənliyidir. Kostyum digər predmetlərlə birgə geyimin yeni modasının əmələ gəlməsi üçün öndə gedən amil olub, modaya aid olanların bir və ya mühüm hissəsinin estetik dəyərlərinin dıyişməsində müəyyən rol oynayır. Bu amilin estetik və iqtisadi əhəmiyyəti vardır. Belə ki, kostyumun formasının dəyişməsi təbii olaraq insanlarda yeniləşməyə olan tələbatdan doğarsa, geyimin estetik cəhətdən dəyişməsi bütünlükdə cəmiyyətin inkişafı ilə bağlıdır.

Parçalar modada böyük əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən növbəti ilin və ya fəslin modası təqdim olunarən ilk əvvəl parça nümayiş olunur, bir qrup dizaynerlər tərəfindən təsdiqləndikdən sonra geyimə keçilir. Parça sərgisindən yəni, təsdiqləndikdən təxminən 4 ay sonra isə geyim modası müəyyənləşdirilir. Məhz bu keyfiyyət Fransanın dünya modası arasında qanunverici kimi mühüm rol almağına yol açmışdı.

Parça olmasa moda meydana gələ bilməz. Rənglər parçada canlanır, formalar parça ilə yaradılır və parçalara müxtəlif naxışlar vurulur. XIV– XV əsrlərdə Avropada yüksək кeyfiyyətli parçalar istehsal olunurdu. Bu parçalar isə şərqdən gətirilən parçalardan heç də geri qalmırdı. Fransa, Ingiltərə və Almaniyada inkişaf edən qotiкa üslubu XII – XV əsrlərdə üç inкişaf dövrü кeçirmişdir. XII əsrdə qadın və kişi geyimlərində isə artıq yeni biçimlər yaranmışdır. XIII əsrdə qotiкanının ən yüкsəк həddə çatdığı bir dövrdə geyimlər harmoniк, dəb – dəbəli və daha uyğun ölçülərə maliк olmağa başlamışdı. XIII əsri “biçim inqilabı” adlandırılır. XIV əsrdə qotiк üslubunda modanın «Burqund modası» adlı yeni bir şaxəsi yaranmışdır. Qotiк üslubun höкm sürdüyü dövrlərdə isə Avropa ölкələrindən кeyfiyyətli parça toxunmasına görə Italiya birinci yeri tuturdu. Siciliyada isə ipəкçiliк çox inкişaf etmişdir lakin XIV əsrdən başlayaraq parça toxuyan ustaların Siciliyadan Luкка şəhərinə кöçməsi nəticəsində ipəкçiliк artik burada yaxşı inкişaf etməyə başlayır və Lukka ipəкçiliк mərкəzinə çevirilir. Luккada artıq кilsə, saray adamları və feodallar üçün bahalı parçalar hazırlanır, Vatiкan, Ingiltərə və Fransa hökmdarlarının geyimləri üçün parça sifarişləri

verilirdi. Bu dövrdə Venesiya isə məxmər parçaların istehsalı mərкəzi idi. XIV əsrdən başlayaraq bütün Avropada keyfiyyətli Venesiya məxmərləri və xüsusi ilə də, qızılı və gümüş saplı, xovlu məxmərlər yüкsəк qiymətləndirilirdi. Venesiyada naziк şəffaf ipəк və gerb geyim parçaları, Florensiyada üzərində gül naxışları olan məxmər parçalar, parçalar istehsal olunurdu.

Hazırki dövrümüzdə də parçalar modada böyük əhəmiyyət kəsb edir.Məhz bu səbəbdən növbəti ilin və ya fəslin modası təqdim olunarkən ilk əvvəl parça nümayiş olunur, bir qrup dizaynerlər tərəfindən təsdiqləndikdən sonra geyimə keçilir. Parça sərgisindən yəni, təsdiqləndikdən  təxminən 4 ay sonra isə geyim modası müəyyənləşdirilir. Məhz bu kefiyyət Fransanın dünya modası arasında qanunverici kimi mühüm rol almağına yol açmışdı. Buna misal olaraq adını tarixə Moda İmperatoru olaraq yazdıran fransız modelyer Christian Dioru göstərmək olar.

XVI əsrdə Avropa geyimlərinə ardıcıl olaraq Fransa, Italiya, Ispaniya və Almaniya modası qarşılıqlı təsir göstərirdi və bu da modanın inkişafında böyük rol oynadı. Xüsusilə Fransada bu cür təsirlərə xüsusi yaradıcılıqla yanaşırdılar. Fransızlar üçün moda hər cür adət və ənənədən kənar bir vərdiş olmuşdur. Cəmiyyətdə uzun müddət davam edən modalar isə kök salaraq ənənəvi xüsusiyyətə çevrilmişdir. Geyim tarixi və moda vasitəsilə əxlaq anlayışları, müxtəlif dövrlərdə yaşamış insanların geyim tərzləri (milli geyimləri) , ənənələri, adətləri və iqtisadi vəziyyətləri uzun zaman ərzində öyrənilir.

Modadan söz edərkən "Modanın İmperatoru" adlandırılan, Christian Diordan danışmamaq mümkün deyil. Dior XX əsrdə geyim dizaynında bir çox yeniliklər gətirmiş, adını tarixə yazmışdır. Christian Dior  imperatorluğunu qurmuş, onun uğuru günümüzə qədər gəlib çıxmış və böyük bir marka olmuşdur. Christian Dior öz xatirələrində belə yazırdı: «Karyeram barədə danışmağa başlamazdan əvvəl böyük hərflərlə «UĞUR» sözünü yazmasam naşükür olaram. 1940-cı illərin sonları və 1950-ci illərin əvvəllərinin ən qüdrətli və nüfuzlu modelyeri Christian Dior müharibədən sonrakı illərdə modanın yeni erasını açmaqla yanaşı, həm də adını tarixə modanın tacsız şahı kimi yazdırdı. O, bir neçə məhsulu bir brend altında birləşdirərək tarixdə ilk moda imperiyasının əsasını qoydu.

Christian 1905-ci ildə Fransanın kiçik Qranville əyalətində doğulmuşdur. Dior Parisdə təhsilini alır, yay tətillərini Normandiyada keçirirdi. Diorun kiçik yaşlarından vətəni Qranvildə keçirilən karnavallar üçün kostyumlar hazırlaması, onun gələcək karyerasından işarə verirdi.

Christian Dior ailəsinin istəyi ilə politiologiya üzrə təhsilinı davam etdirir, asudə vaxtlarında isə öz məşğuliyyəti ilə bu sahəyə marağı artıraraq dostu Jak Banjanla birgə kiçik qalereya açır. Ancaq həyatının gözəl illərində Diorun həyatında ağır günlər başlayır. Onun vərəmə yoluxması isə həyatın vurduğu ağır yaralardan biri olur. Buna görə də qalereyadan məcbur uzaqlaşmalı olur. Xəstəlik səbəbindən ətrafdakı insanlardan təcrid olunması onun dizaynla maraqlanmasına şərait yaradır. Çəkdiyi eskizləri dostu moda aləminin tanınmış nümayəndələrinə göstərirdi. 1938-ci ildə Dior, Robber Pijenin moda evindən təklif alır və işləməyə başlayır.

II Dünya Müharibəsi illərində Dior cəbhəyə yola düşür və onun yerini başqası tutur. Diorun 7 ildən sonra yenidən moda dünyasına möhtəşəm qayıdışı baş tutur.Dostlarının məsləhəti ilə Fransanın tanınmış moda jurnallarına rəsmlər çəkən Christian tezliklə populyarlıq qazanmağa başlayır.O, bir neçə il Lyusen Lelonq və Pyer Balman ilə əməkdaşlıq edir. 1946-cı ildə isə bəxti onun üzünə gülür. Belə ki, Dior Marsel Bussakla rastlaşır və o, gənc rəssamı yeni bərpa olunmuş «Filipp Qaston» Moda Evinin direktoru vəzifəsinə dəvət edir. 1946-cı ildə Christian Marsel Busakın maliyyə dəstəyi ilə öz şəxsi moda evini açmağa müvəffəq olur.

Kommersiya sahəsində uğur qazanmaqla yanaşı, Dior həm də ictimaiyyətin hörmətini və sevgisini əldə edir. 1950-ci ildə qədir bilən xalqı Christian Dioru " Fəxri Legion" ordeni ilə təltif edir. İngiltərə şahzadəsi öz kolleksiyasını nümayiş etdirmək üçün onu Londona dəvət edir. Dior belə bir təklifi Yunanistandan da alır. Kolleksiyanın nümayişi Blenheym sarayında şahzadə Marqaret başda olmaqla Böyük Britaniyanın aristokrat ailələri və onların nüfuzlu qonaqları qarşısında baş tutur.

Christian Dior təkcə modaya deyil, kino sahəsinə də böyük töhfələrini verib. Onun moda evi «Sevgi məktubları» (Kloda Otan- Lara) , «Susmaq qızıldır» (Rene Klera) kimi məşhur filmlərin qəhrəmanları üçün kostyumlar tikirdi. Marlen Ditrix, Ava Qardner, Oliviya de Hevilend kimi tanınmış aktyorlar tez-tez ona müraciət edərdilər. Amma Christian Dior kinomatoqrafiyadan çox moda sahəsində çalışmaqdan zövq alırdı. Diorun fikrincə ekrandakı obraz heç vaxt tamamlanmış olmur. Odur ki, o çox zaman kinokompaniyalardan gələn təkliflərdən müxtəlif bəhanələrlə imtina etməyə çalışırdı. Amma bu böyük sənətkar Marsel Aşarın «Paris valsı» filmindəki işini uğurlu adlandırıb. O, bu filmdə III Napoleon obrazını yaradıb. Christian Diorun bacarıqlarından biri də onda pedaqoji qabiliyyətin olması idi. O ilk baxışdan gənc modelyerlərin işinə qiymət verməyi bacarırdı. Dior istedadlı gəncləri öz moda evinə cəlb etməyə çalışırdı. Burada modanın sirlərinə yiyələnənlər arasında Pyer Karden, Jan Lui Şerrer, Frederik Kaste kimi istedadlar var idi. Dior onlara sənətin zirvəsinə yüksəlməyin yollarını öyrədirdi. Təsadüfi deyil ki, Frederik Kasten artıq 24 yaşında şəxsi atelyesini açmışdı. 1955-ci ildə İv Sen- Loran Christian Diorun moda evinə gələndə, o, bu gəncin qeyri-adi istedada malik olmasını görmüş və onu öz himayəsinə götürmüşdü. Təsadüfi deyil ki, bir ildən sonra Sen-Loranın «Trapesiya» adlı kolleksiyası böyük maraqla qarşılanır.

Çox təəssüf ki, bu cür fitri-istedada malik insanın həyatı o qədər də uzun olmayıb. Christian Dior 1957-ci ildə İtaliyada 52 yaşında ürək tutmasından dünyasını dəyişir.

Yuxarıda həyatı ilə bağlı qısaca məlumat verdiyimiz, dizaynlarıyla XX əsrə damğasını vuran modelyerlərdən biri olan Christian Diorun geyim dizaynında bir çox yeniliklərə imza atmışdır . Onun imzası belə qadınların ən böyük arzusu idi. Diorun geyimləri nəyinki öz dövrünün hətta bugünümüzdə belə qadınların aşiq olduğu geyim modelləridir.

Moda dünyasında həmişə sıradan, sadə dizaynlara meydan oxuyan Christian Dior, Dünyanın qabaqda gələn "haute couture" (xüsusi tikim) moda evlərindən birinin qurucusudur. Onun xəttləri zərifliyi ilə seçilirdi.

Dior, Böyük Böhrandan sonra Parisə köçüb və 1934-cü ildə moda dünyası ilə tanış oldu. Şapka və ziyafət geyimlərinin şəkillərini jurnallara və moda evlerine satmağına başladı. Xüsusilə Parisin məşhur şapkacılarından olan Madam Agnès onun dizaynlarını sevirdi. Dörd il sonra Dior dizayner Robert Piguet'nin “ Haute Couture ” moda evində çalışmağa başladı. Yalnız o, burada bir il çalışa bildi və II. Dünya Savaşı üçün əsgərə getdi. Əsgərliyi bitincə 1941-ci ildə işğal altındakı Parisə qayıdan Dior, bu səfər yüksək rütbəli Alman əsgərlərinin və cəmiyyətin hər zaman müraciət etdiyi Lucien Lélong'un moda evində işə başlayır. Artıq zəngin müştəriləri üçün xüsusi sifarişlə paltarlar və ziyafət geyimləri hazırlamağa başladı.

Nəhayət, 1947-ci ildə ilk kolleksiyası, "Tac yarpaqları" mənasını verən “ Corolle ” ilə podiuma çıxdı və yer yerindən oynadı. O, bu kolleksiyası ilə moda tarixinə adını yazdıırmağa nail olmuşdu. Dior, ilk kolleksiyası haqqında "Mən çiçək qadını hazırladım." Demişdi. “Harper's Bazaar”ın nəşr rejissoru olan Carmel Snow onun cizgilərini "New Look", yəni "Yeni Görünüş" deyə adlandırmışdı. Snow bu deyimi ilə heç də haqsız sayılmazdı. Çünki Dior modada II. Dünya Savaşının təsirində qalan qara buludları dağıtmış və modada yeni era yaratmışdı. Kişi geyimlərinə xas olan sərt cizgilər artıq onun sayəsində aradan qaldırılmış və onun yerinə sadə, zərif geyimlər dəb halına gəlmişdi.

Diorun yaratdığı axın ilə 1950-ci ildə Parisi yenidən modanın mərkəzlərindən birinə çevirməyə bacardı. Çox keçmədən sərt büstiyer stilindəki korsajlar, incə belli, dərin dekolteli, qıvrımlı, beldən aşağı genişlənən paltarlar qadınların qardiroblarını bəzəməyə başladı. Buna baxmayaraq yenə də ayaq biləyinə qədər uzanan bol ətəklər o illər üçün bir az daha havali idi.

Dior kolleksiyalarında gündəlik paltarlar üçün ortalama 10-25 metr, gecə paltarları üçün isə 80 metrə qədər parçadan istifadə edirdi. Savaşdan sonrakı illərdə Fransada qıtlığın olması Diorun tənqidlərə məruz qalmağına səbəb olmuşdu. Buna baxmayaraq qadınlar tərəfindən onun kolleksiyaları yenə də qısa müddətdə böyük rəğbət gördü. Artıq Dior dövrünün ən möhtəşəm dövrünü yaşayırdı. Hələ o dövrdə belə Avropanın kral ailələri və Hollywood ulduzları kimi bir çox qadın bu dəbdəbəli paltarlara aşiq olmuşdular.

Kolleksiyada yüksək bel ətəklərin, yumşaq, yüngül pencəklərin və qara rəngin hakimiyyətini görürük. Ayaqqabılarda isə Marry Janes modelləri, daha gənc və yenilikçidir. Qara paltarlarda fərqli naxışların və rənglərin bir araya gəldiyi geyimlər, qırmızı, çəhrayı naxışlı tafta parçadan paltarlar ilə də Diordaki dəyişikliyi görürük. Ayrıca qalın choker model boyunbağılar, vintage tərzdə işlənmiş daşları ilə çox daha iddialıdır.

Artıq 1950-1960-cı illərdə rəngsiz, ruhsuz və sadəcə korsetlərdən ibarət paltarlar dəbdən düşmüş, Diorun rəngarəng, çiçəkli geyimləri isə Parisin ən dəbli geyimlərindən hesab olunurdu. Beləliklə, insanların xüsusən də qadınların

həyatında böyük rol oynayan Christian Dior "Modanın imperatoru" adlandırılmağa başlandı.

Dior "Əgər edəcəyiniz səhvlər bir uğur deyilsə, bu səhvlər əsla əff edilməz" bu sözlərini qarşına məqsəd qoymuş, aldığı hər bir riskli qərarlarla böyük bir uğura imza atmışdı. Diorun geyimlərinin bu qədər bəyənilmə səbəbi düzgün rənglərdən və detallardan istifadə etməsi idi.

Bu gün Christian Diorun adı təkcə məşhur modelyer kimi deyil, həm də 70 min nəfərdən artıq işçi ştatı olan bir şirkət kimi səslənir. O, sözün əsil mənasında bütün qəlbi ilə modaya bağlı insan idi. Modanın yalnız parça növlərindən, aksesuarlarından, televiziya kanalları və ya jurnal səhifələrindən yaranacaq qədər dar çərçivədə bir mövzu deyildi. Bünövrəsi olan tədqiqatlara, güclü axtarışlara əlbəttə modanın fenomenliyini qoruya bilmək üçün ehtiyacı var idi. Məhz bu səbəbdən Dior, ölümünə qısa vaxt qalmış yüksək moda barədə nəzəri araşdırmalar aparırdı. Christian Diorun moda ilə məşğul olduğu vaxt ərzində gəldiyi qənaət belə idi: «Yüksək modanın yaranmasında iki vacibli amil rol oynayıb. Birincisi, bu sənətlə vicdanlı insanlar məşğul olub. İkincisi, bu sahə hər zaman yeniliyin tərəfdarıdır. Gələcəkdə dünya modasının inkişafına məhz Parisin yüksək modası təkan verəcək. İllər ötəcək mətbuat, radio, kino və televiziya onun inkişafını bir qədər də sürətləndirəcək. Bundan sonra modanın miqrasiyası baş tutacaq. Nəticədə öz imkanları çərçivəsində hər kəs moda ilə ayaqlaşmağa başlayacaq».

Christian Dior hər zaman yaradıcı ideyaları ilə yeni dizaynerlərə çox böyük dəstək göstərmişdir.XXI əsrin modası olan Dior geyimləri, ayaqqabıları, parfümləri, aksesuarları ilə qadınların zövqünü oxşayır. 60 illik moda markası olan Dior bu gündə belə öz zirvəsini qoruyub saxlayır.

## **Ədəbiyyat**:

1. Yunusov N. R.. Müasir modanın inkişaf tendensiyaları. Bakı: Səda, 2006
2. Андреева И.А. Массовая мода и техническая эстетика // Жур. «Техническая эстетика», Москва, 1985.
3. Аульхауер Х.Д, Альтенбург У. Мода между спросом и предложением.М., 1983
4. Покна М.-Ф. Кристиан Диор. М., Вагриус, 1998
5. Гофман А.Б Мода и люди. Новая теория моды. Питер, 2008
6. The Little Dictionary of Fashion. V&A Publishing 2008.

**Ургия Гасанова**

## **Император моды - Кристиан Диор**

## **Резюме**

Мода с первого дня своего создания сумела ввести людей в восторг. Мода ещё в более понятной форме отражает взаимоотношения между

человеком и одеждой. Таким образом, в то же время мода пропагандирует новшества. Говоря о моде, невозможно не упомянуть императора моды Кристиана Диора. Как уже известно, одежды марки Кристиан Диор отличаются своей изысканной элегантностью.

**Ключевые слова**: Кристиан Диор, мода, изысканные и элегантные платья, простота, ухоженность, вкус, дизайн.

**Urgiyya Hasanova**

## The Emperor of fashion - Christian Dior

### Summary

Fashion has been able to surprise people since the first day of its creation. The interaction between men and clothing reflects fashion more clearly. Thus, it promotes innovation at the same time. When talking about fashion, it is impossible to talk about fashion emperor Christian Dior. As you know, Christian Dior is a brand. The dress is not only the 50th century, it is also the greatest desire of women in today's world. Dior dresses are distinguished by their elegance and unique features.

**Keywords**: Christian Dior, fashion, exquisite and elegant dresses, simplicity, carefulness, enjoy, design.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 25.04.2018**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 03.05. 2018**
**Məqalənin çapa qəbul olunma tarixi: 29.05. 2018**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə elmlər doktoru, professor Cəmilə Həsənzadə**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**